

Ələsgər ƏLİOĞLU

# Suvaqçı

*Hekayə*

O, bizim kəndin yetirməsidir. Nadir adlı bu suvaqçının əl işlərinin çoxu da elə öz kəndimizlə bağlıdır. O, ali təhsilini başa vurub az müddətdə kənddə müəllim işlədikdən sonra maaşın azlığından gileyli başlamışdı suvaqçılığa. Nadirin ilk əl işi kənddə Sabir müəllimin yenicə tikdirdiyi evin suvağı olmuşdu. Sabir müəllim çəkilən suvağa baxıb təəccüblənmişdi:

- Ay qardaş, bu nədir?.. Barının qarnı irəli çıxıb!

Nadir:

- Ay müəllim, ağzıgöyçəklər sizi bəyənməsələr də, maşallah, siz savadlı adamsınız, kəndimizdə tanınmış, sayılıb-seçilən, barmaqla göstərilən bir pedaqoqsunuz. Bəs bilmirsiniz, barıya özüm belə forma vermişəm!? Buna modern suvaq deyilir. Bunun da öz mənası var. Bu, onu göstərir ki, barı da canlıdır, barı da insan kimi azadlıq, demokratiya istəyir. Elə ona görə də sinəsini irəli verib...

Nadirin bu sözlərindən sonra Sabir müəllim sanki indi özünü yaxından tanımışdı. İndi ona elə gəlmişdi ki, Nadirin dediyi kimi, doğrudan da, barmaqla göstərilən pedaqoqdur...

Nadirin kənddə evlərə çəkdiyi suvaqlardan hansının bir əmması çıxırdısa, Nadir həmin əmmanı bağlayırdı modernizmə. Ona iş gördürən kəslər də qonum-qonşuluqdan keçə bilmir, könüllü-könülsüz modernizmlə barışmalı olurdular. Təzə iş gördürmək istəyənlər Nadirin necə suvaqçı olduğunu soruşub-öyrənmək istəyərkən, hamı da əlacsız bir surətdə onu tərifləmək məcburiyyətində qalırdı. Hamı da istəyirdi ki, böyürbaşdakı evlər də Nadirin oturub-durub dediyi modern üslubda olsun. Onda onlara lağ eləyən tapılmazdı... Bir sözlə, kəndimiz suvaqçı Nadirin sayəsində modernizm xəstəliyinə tutulmuşdu...

Günlərin birində Nadir meşəbəyi Cavadın evini suvamalı oldu. İş başa çatandan heç bir həftə keçməmiş divarlarda saralmış ota bənzər rənglər, boz-boz göbələklər əmələ gəldi. O, Cavad kişini də bir təhər yoluna qoydu və onu da yarı ciddi-yarı zarafat sözlərilə modernizmə calaşdırdı:

- Cavad kişi, öz aramızdır daha meşənin axırına çıxmısan. Belə getsə beş-on ildən sonra meşədə quruca kötüklər qalacaq. Bunların hamısını götür-qoy edib istəmişəm ki, meşənin ab-havasını elə evinizə gətirim. Bir də əziyyət çəkib meşəyə getməyəsən... Görürsənmi xəzan otlarını, xəzəli, göbələkləri... Nə gözəl aura yaradır. Maşallah, evində meşənin ətri duyulur... Daha məndən nə istəyirsən?..



Nadirin aqronom İsmayılın evinə çəkdiyi suvağın da beş-on günün içində əmması çıxdı. Divarda əcaib çatlar əmələ gəldi. Ancaq ev yiyəsi suvaqçıya öz iradını bildirməyə peşman oldu.

- Qardaş, sən ki kəndimizdə yeganə ali təhsili, diplomlu, dünya siyasətilə maraqlanan birinci ziyalısan. Elə buna görə divarda dünyanın siyasi xəritəsini vermişəm də... Hələ iki-üç aydan sonra kiçik dövlətlərin də sərhədləri bu xəritədə aydın görünəcək...

Nadir "diplom" sözünü elə bir intonasiya ilə dedi ki, İsmayıl xəfələnən kimi oldu. Artıq ömrün qırxıncı qapısından adlamış aqronom bu illər ərzində bircə kərə dünya siyasətilə maraqlanmasa da, özünü o yerə qoymadı, susmağa üstünlük verdi.

...Günlərin birində maşınla rayon mərkəzindən kəndə qayıdırdım. Kəndə on-on iki kilometr qalmış Nadiri başı sarıqlı halda yol kənarındakı nəhəng qovağa söykənib dayanmış gördüm. Cəld əyləci basdım. Maşının pəncərəsindən: - Nadir, ay Nadir, kəndə getmirsən? deyə səslədim. O, sevinə-sevinə yüyürək bir tərzdə özünü maşına yetirdi:

- Allah köməyin olsun! Səhərdən maşın gözləyirəm. Başım da gicəllənir. Elə bil ki, maşın qəhətə çıxıb. Yaxşı ki, sən gəldin.

- Nadir, başın niyə sarıqlıdır? Paho, gözlərinin altını kim belə qaraldıb?

Suallarım elə bil ki, bir qazan qaynar su olub töküldü Nadirin təpəsinə. Sifəti pörşələnmiş gavalıya döndü. Ora-bura yozmaq istədi. Lakin bu da alınmadı. Ona görə məni and-amana tutub başına gələnləri müfəssəl şəkildə danışmağa başladı:

- Qardaş, bir azara düşmüşdüm. Allah üzümə baxdı, hələ yaxşı qurtardım. Bu qonşu kənddəki bir evə suvaq çəkirdim. İşi təzəcə tamamlayırdım ki, ev yiyəsi gəlib çıxdı. Baxıb dedi ki, suvağı necə vurmusansa, eləcə də qopart tök! Həm də bildirdi ki, işlətdiyin iki ton gəcin ya pulunu ver, ya da özünü... Mən onu nə qədər qandırmaq istədim ki, a kişi, bu suvaq modern üslubundadır, başa düşmədi ki, düşmədi... Axırda əlbəyaxa olduq. Köpəkoğlu çox zırpıydı. Vurub gözlərimin altını qaraltdı. Bununla da ürəyi soyumadı. Əlinə keçən bir taxta parçasını da başıma ilişdirdi. Elə bil gözlərimdən şimşək çaxdı... Bir vaxt ayıldım ki, çarpayıdayam, başımın üstə də bir ağxalatlı dayanıb. Sən demə, ev yiyəsinin qonşusu imiş. Özü də tibb bacısı işləyirmiş...

Mən Nadirə iradımı bildirdim:

- Bəs niyə onu polisə vermirdin?

- Ay kişi, çox geri qalmış kənddi. Modernizm nədir, bir başa düşəni yoxdur. Başıma yığışanların hamısı da elə onu haqlı çıxartdı. Hardan şahid tapaydım ki? Şükür ki, köpəkoğlu gözlərimin altını qaraltsa da, başımı yarsa da, güzəştə getdi. Dedi ki, daha iki ton gəci istəmirəm, özüm alacam...

Kəndə girəndə Nadir məndən yalvarıcı bir tərzdə xahiş etdi:

- Zəhmət olmasa, məni qapımızın ağzına qədər apar. Qoy görüb-eləyən olmasın.

Maşından düşəndə o, bir daha məni and-amana tutdu ki, başıma gələnləri kənddə heç kimə danışma. Mən modernist suvaqçıya təskinlik üçün ancaq bu sözləri deyə bildim:

- Sənət qurban tələb edir...